# Azərbaycanda kiber akademiya açılıb

Azərbaycanın ən böyük kibertəhlükəsizlik müəssisələrindən biri olan PROSOL şirkəti ilə Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) birgə layihəsi olaraq ərsəyə gələn "PRO-ACADEMY" təlim-tədris mərkəzinin rəsmi açılış mərasimi keçirilib.



## "PRO-ACADEMY" təlim-tədris mərkəzində 55 tələbə təhsil alacaq



"PRO-ACADEMY"-nin əsas məqsədi Azərbaycanda kibertəhlükəsizlik üzrə milli kadrların hazırlanması, gənc mütəxəssislərin, həmçinin bu istiqamətdə təhsil alan tələbələrin bilik və bacarıqlarının daha da artırılması yolu ilə onların ölkəmizə qazandırılmasıdır. Kiber təhdidlər həm fərdlər, həm şirkətlər, həm də dövlətlər üçün ciddi fəsadlar yaradır. Getdikcə daha təhlükəli hal alan bu tendensiya ölkələrin yarana bilən təhdidlərə qarşı öz müdafiə potensialını formalaşdırmasını şərtləndirir. Bu mənada, Azərbaycanda da yüksək biliyə və təcrübəyə sahib olan kiber mütəxəssislərin hazırlanması, onların ölkəmizə qazandırılması əhəmiyyət kəsb edir.

PROSOL şirkəti və ADNSU tərəfindən yaradılan akademik mərkəz də məhz bu ümdə ehtiyacın təbii nəticəsi kimi ortaya çıxıb. Mərkəz öz tələbələrinə kiber hücum, kiber müdafiə, kiber araşdırma və qiymətləndirmə, kiber siyasətlər, qaydalar, prosedurlar və sair kimi aktual istiqamətlərdə təhsil verəcək.

Qeyd edək ki, PROSOL şirkəti sahib olduğu Kiber Təlim Mərkəzində son bir ildə təmənnasız olaraq 50-yə qədər kiber analitik və mütəxəssis hazırlayıb.

Tədbirdə ADNSU-nun rektoru Mustafa Babanlı çıxış edərək kibertəhlükəsizliyin ölkəmizdə böyük əhəmiyyət kəsb etdiyini və akademiyanın əsas məqsədinin Azərbaycanın gələcəyinə xidmət edəcək yüksəkixtisaslı kiber mütəxəssislərin hazırlanması olduğunu bildirib.

Daha sonra "PRO-ACADEMY"-nin həmtəsisçisi və rəhbəri Babək Ağayev, İsrail baş nazirinin keçmiş müavini, keçmiş müdafiə naziri Moşe Ya'alon, İsrailin "See Security" kiber akademiyasının təsisçisi və rəhbəri Avi Vaysman rəqəmsal dövrdə kibertəhlükəsizliyin rolu, bu sahədə Azərbaycan və İsrailin ortaq maraqları barəsində çıxış ediblər.

Tədbirin sonunda PROSOL şirkətinin Kiber Təlim Mərkəzində yetişmiş və hazırda şirkətin aparıcı mütəxəssisləri olan ADNSU tələbələrinin uğur hekayələri, həmçinin "PRO-ACADEMY" təlim mərkəzində təhsil alacaq 55 tələbədən ikisinin gözləntiləri və fikirləri dinlənilib.